"Azərinşaatservis" MMC
Azərbaycan, Bakı, AZ 1108, Dərnəgül qəs., 11-ci Dağlıq k., 3105
**Tel.:** (+994 12) 447 70 03 (04) **Faks:** (+994 12) 565 04 54
www.azerinsaat.com

**PRES RELİZ**

# "Azərinşaatservis" MMC Bakı-Tbilisi-Qars dəmir yolunun Gürcüstan hissəsinin tikintisinə mart ayında yenidən start verəcək

*"Azərinşaatservis" MMC*
*Bakı, Azərbaycan*
*2009/01/13*

Bakı-Tbilisi-Qars dəmir yolunun Gürcüstan ərazisinə düşən Axalkalaki-Kartsaki-Türkiyə sərhədi dəmiryolu hissəsinin tikintisini aparan Azərbaycanın "Azərinşaatservis" MMC şirkəti pis hava şəraitinə görə işləri dayandırsa da Mart ayında işlərə yenidən start verəcək.

Şirkətin İdarə Heyətinin üzvü Vüsal Aslanovun sözlərinə görə Dekabrın 15-dən etibarən yağan güclü qar nəticəsində ağır texnikaların hərəkəti və işçilərin açıq havada işləməsi mümkünsüz hal alıb. "Biz müvvəqqəti olaraq tikinti işlərini saxlamışıq. Sadəcə olaraq, ilkin layihə hazırlanarkən yolun geoloji quruluşu tam öyrənilmədiyi üçün müəyyən texniki problemlərlə rastlaşdıq. Qərara gəlinib ki, yenidən hər şey öyrənilsin və yeni layihə hazırlansın. Amma bütövlükdə yol Avropa standartlarına uyğun tikilməkdədir və ilkin düşünülmüş plana dəyişiklik yoxdur"

Axalkalaki-Karsaki-Türkiyə sərhədi dəmiryolunun tikintisinə 2007-ci ilin Noyabr ayında start verilib. Azərbaycan Dövlət büdcəsi tərəfindən maliyyələşdirilən bu dəmiryolu layihəsinin ümumi dəyəri 79 445 612 ABŞ dollarıdır.

*2003-cü ildə qurulan "Azərinşaatservis" MMC Azərbaycanda və Qafqaz regionunda yüksək keyfiyyətli xidmətlər göstərməklə yol və dəmiryolu tikintisi sahəsində liderlik iddiasında olan bir şirkətdir. Şirkət əsas fəaliyyət dairəsi olan avtomobil və dəmiryolu tikintisində A-dan Z-yə bütün növ xidmətləri öz imkanları hesabına həyata keçirir.*

***Mətbuat üçün əlaqəli şəxs:***
**Kənan KƏRİMLİ,** İctimaiyyətlə Əlaqələr və Mətbuat Meneceri
**Tel.:** (+994 12) 447 70 03 (04)
**Mob.:** (+994 55) 208 20 87, (+994 50) 255 38 86
**E-mail**: k.karimli@azerinsaat.com
**www.azerinsaat.com**